# MARAL MƏŞƏDİLƏRİN HEKAYƏTİ, YAXUD NATAŞANIN MƏHƏBBƏTİ

## ("Ə.Haqverdiyevin obrazları" silsiləsindən)



*Allahverdi Eminov*

**Əbdürrəhim bəyin hekayələrindəki ictimai-sosial mətləblərin fəlsəfəsini əxlaqi qəbahətlər, davranış cinayətləri, sağlam həyat tərzinin pozulması təşkil edir; yazıçı geniş coğrafi müşahidələrinə arxalanır. Və dərin kədər hissini yaşaya-yaşaya ədəbi vərdişindən qalmır, yeni epitetlər axtarır. Və dərin təəssüf duyğusu ilə obrazlarını "marallarım" adlandırır. Yumorla satira ovqatının sintezində cəmiyyətin idarə olunmasındakı dərəbəylik, sərvət yığımına hərislik və fanatik psixologiyanın sərhədi İrandan, Hindistandan, İrəvandan, Naxçıvandan, Salyandan, Bakıdan, Batumdan, Dərbənddən, nəhayət, Dağıstandan başlayıb tamamlanır. Maraqlısıdır - biz xalq ədəbiyyatında maralı "meşənin gözəli" adlandırmışıq. Həqiqətən, yazılı ədəbiyyatda da maral estetik zövq mənbəyi kimi dəyərləndirilir və ovçu ovladığı maralın buynuzunu qiymətli əşya olaraq qoruyur.**

Halbuki, o hörülmüş buynuz sahibinin düşmənidir. Bəs necədir ki, ovçular (bütün dünyada belədir) buynuzu qənimət sayırlar? Bəlkə bir səbəbi məhz onun buynuzunun budaqlarıdır ovçu atəşini reallaşdıran - hansı ki qaçıb canını qurtarardı? Bəlkə yazıçı demək istəmişdir ki, insanın da ciddi bir qüsuru, qəbahəti, yaramaz addımı məhz "buynuz" çıxarıb ətrafına, tabeçiliyindəkilərə, yaşadığı torpağa, ona xidmət göstərdiyi adamlara buynuz göstərməsidir?! Bəs demirikmi filankəsin vəzifədə buynuzu göründü (sən demə, varmış, imkanı yoxmuş), filankəsin buynuzu içindəymiş, filankəsin buynuzu başına bəla olacaq! Amma əsas məsələni - problemi demirik: O adamın buynuzunu sındırıb tapdalamaq lazımdır, vaxtı yetişmişdir! Belə susmağımız buynuzların artımına gətirib çıxarır, sonra meşə Aslanının da gücü çatmır!

Ə.Haqverdiyev müdrik yazıçı, alimdi və maraldan məharətlə bədii "priyom" kimi istifadə etdi və dedi: "Gözəl marallarım, göyçək marallarım. Hər biri bir can marallarım, hacı marallarım, kərbəlayi marallarım, məşədi marallarım, molla rövzaxan, bəy-xan marallarım... Başları qapazlı, üzləri tüpürcəkli marallarım".

Mirzə Cəlil dühası demişkən: Allah sənə rəhmət eləsin, Əbdürrim bəy! Saydığın o tiplər var, yenə də bu millətin, xalqın boğazına keçiblər, fərqi odur ki, meşəni çoxdan tərk ediblər, çün, məmləkətimizin meşələrini, həyət-bacadakı ağacları qırıb qurtarmaq üzrədilər, daha haradan çıxıb görünəcəklər. Sənin marallarının xələfləri - nəvə-kötücələri daraşıblar övladın olduğun ana Vətənin canından, xirtdəyindən - bircə nəfəs yeri saxlayıblar - ölməsinlər, əlləşib-çalışıb onların ciblərini (o ciblər naməlum banklara çevrilibdir) doldursunlar, övladlarına 50-100-200 min manat civarında minik maşınları alsınlar. Ustad, siz ədəbiyyatşünassız, qarşınızda üzr istəməyə bilməzdim, bədii ədəbiyyat eyni zamanda informasiya verməlidir gələcək oxucularına; necə ki, gördüyünüz "marallar"dan bizə əntiqə məlumatlar yadigar qoydunuz. Uzatmıram mətləbi. Bu cümləni qələmə ilişdirəndə (14 iyun, 2013-cü il) elə bu ayda televiziyada (nə yaxşı sizin vaxtlarda ekran əhvalatı olmayıb, baxsa idiniz ala-bula xəbərlərə - Mirzə Cəlil mütləq sizə zəng atacaqdı ki...) on doqquz yaşlı bir cavanın, yəni həkim oğlunun yüz doxsan min manatlıq xarici maşını (atasının pulu ilə!) ilə sürətlə gedərkən, on üç yaşlı bir məktəbli qızı yoldaca basıb öldürdüyünü əyani göstərdi. Qəzetlər çığır-bağır salandan sonra "namusa boğulub" cinayətkarı tutublar. Məntiqlə onu aradan çıxarmaq niyyətləri varmış!

Ustad, beləsi birmi - beşmi - onmu?!. Mətləbinizə qayıdıram ki, Hacı, Deputat marallarımız sizinkindən xeyli fərqlənirlər: haram pulları ilə ziyarətə gedib hacılaşırlar, "Hacı" sözünü əlavə edirlər. Və qaranlıq "üzləri"lə camaatın üzünə çıxırlar. Kərbəla, Məşhədi kimi müqəddəs yerləri "su yolu"na döndəriblər. Və olurlar: üç qat, beş qat düna hacıları! Amma, ustad, siz bunu dəqiq bilərsiz. Onların əqidəsincə (olmayan dəyərdən söhbət gedir) hacı, məşhədi, kərbəlayı titulları onların bu dünyadakı rəzalətlərini bağışlayacaqmı! Bu, mümkünmü?

Sizin təsvir etdiyiniz "bəy-xan maralları"nız, həqiqətən, qeyri-rəsmi bəylərdir, xanlardır səpələniblər ölkəmizə, amma rəsmi "rayon icra hakimiyyəti başçıları" adı ilə "qeydiyyatdan" keçib göndərilir. Başlayırlar və camaatın başında turp əkirlər (indi qırmızı turp hər yerdə bitir, acısı daha tez əmələ gəlir). Saydığınız bölgələrdən ən yaxşı turpu Salyanda, Masallıda, Lənkəranda əkib yerdən çıxarırlar. Dediyiniz Qarabağda daha biz yox, ermənilər əkirlər və topa qoyub özümüzə tuşlayırlar.

"Qotur, bitli, keçəl maralları" tanıya bilməzsiz əsla. Bu 15-20 ildə özlərinə elə sığal-tumar verdilər ki... Oturdular məsul vəzifələrdə, iri-iri şirkətlər yaratdılar, ucauca "şadlıq sarayları", xarici adda restoranlar tikdilər və hələ də adamları satmaqla məşğuldular. Ustad, əsl bəy-xan zəmanəsidir, təkcə bir həmyerlin, qohumun, dayın olsa - kifayətdir; otur və keyfini nağıllardakı yox, real bəylər, xanlardan da əzəmətli dövranını sür!

Amma yazdığın "başları qapazlı, üzləri tüpürcəkli marallarım"a - mətləb qəlizdir, ustad. Bu zümrələr (mən fəqir yazar da, alim də, pedaqoq da onların günündəyəm) ki var idi, indi də biz ziyalılar - həmin bəylərin, xanların pulsuz-parasız əllərinin altında başıqapazlıyıq...

Böyük ustad, nə yaxşı xalqımızın Mirzə Cəlil, Əbdürrəhimbəy, Süleyman Sani, Abdulla Şaiq kimi millətini sevən, xalqını maarifləndirmək üçün risklə bədii əsərlər yazan, ümidini itirməyən ustadsənətkarları olmuş və bu gün də yaşayırlar, ruhları bizimlədir.

Obrazlarınızı təhlil edəndə, imkan tapıb müasirimlə bağlayacam xarakterlərini və mühitlərini. Bilirəm ki, marallar bütün dünyada yaşayırlar, elə isə bizdə nə üçün olmasın, ustad?!

Ə.Haqverdiyevin marallarından ilk "qurbanı" Qasım əmidir və müəllifin bir xəbərdarlığı ilə:

**Qasım əmi, dur qapını cəftələ,**
**Qorxuram adın yazıla dəftərə.**

Qasım əmi kənddə təsadüfi şəxs sayılmır, yüzbaşı olub da, amma "axırda bir nəfər onun üstünə şər atıb ki, guya Qasım yüzbaşı rüşvətxordur, o da haqqında bu zülmü görüb, acıqla götürüb bir üç yüz təbəqə ağ kağıza möhür basıb. İndi də o kağızlardan düşəndə təbəqəsini üç manatdan, beş manatdan satır...

Bu tanışlıq Qasım əminin daxili barədə müəyyən məlumat versə, hələ tam açmır. O isə kənddə nüfuzundan sui-istifadə edib, zəruri mülki məsələni - uşaqların doğum gününü qeyd edən rəsmi kağızdan imtina üçün öz mülahizələrini irəli sürür, hətta məsxərəyə qoyur: "Qardaş, uşaqlarımızın adlarının o dəftərdə nə işi? Sabah da gələcəklər ki, gəlin arvadlarınızın adlarını yazdırın! Canım, rusun biri niyə mənim arvadımın adını bilsin? Doğrusu, biz bu mütrüb dəftərini qəbul eləyə bilməyəcəyik. Buna araba ilə dovşan tutan rus deyərlər".



Qasım əminin məqsədi nədir bu hərəkətində? Yeniliyə qarşı çıxmaqla, rəsmiləşən qayda-qanunların ona yetirəcəyi zərbənin qarşısını almaq. Feodal-patriarxal psixologiyanı qoruyub saxlamaq. Və ədib də hekayəni təsadüfən "Mütrüb dəftəri" adlandırmamışdır. Doğulan uşaqlar qeydiyyatdan keçməlidir, onun vətəndaşlığı rəsmiləşməlidir.

İşə müəllif (birinci şəxs) qarışır və sual edir ki, Qasım əmi! Bu qayda hər dövlətdə var, uşaqların adlarını metrik dəftərinə salırlar ki, lazım olan vaxt hər birinin yaşı məlum olsun - Bu sözlər onu cin atına mindirir, sanki onu güllə ilə vururlar. Və çox bəsit, gülməli situasiya yaradır Qasım əmi:

"- Mən özüm mütrüb dəftəri. Hər kəsin sinnini bilmək istəyirsiniz, məndən soruşun! - Bax bu uşaq Qarğa Mələyin nəvəsidir, gün tutulan ili anadan olub. Bu uşaq ilan qırxan Səfdərin oğludur, çəyirtkə taxılları tərk eləyən ili doğulub. Bu uşaq pişiksatan Haşımın nəvəsidir. Novruz bayramı ilə aşura bir günə düşən ili anadan olub".

Qasım əminin yaddaşına söz ola bilməz, amma hər bir uşağın gələcək həyat yolu onun nə vaxt, harada doğulmasından və kimin övladı olmasından başlayır.

Maraqlı bir nüans da yazıçının eyhamıdır: hər bir adama ya xasiyyətindən, ya da peşəsindən irəli gələn camaatın ona ayama yapışdırmasıdır. Personajlar kimlərdir? "Qarğa Mələk, ilan qırxan Səfdər, pişiksatan Haşım". Bu mühit haqqında əyani təsəvvür yaradır.

Qasım əmi bəs hansı ildə doğulub?

"- Xaşal Qurbanı sel aparan ili".

Qasım əmi avam deyil - bunu bilməliyik - siyasətdən başı çıxır, xüsusilə, rusla bağlı. İşarələr vurur: "Xanım, rusun biri niyə mənim arvadımın adını bilsin? Buna araba ilə dovşan tutan rus deyərlər. Bu gün uşaqlarımızı dəftərə yazacaq, bir neçə ildən sonra gəlib hamısını yığıb soldat aparacaqlar".

Bəli, bu "üç" şərh sonralar da - Sovet hakimiyyəti yetmiş ildə biz azəri-türklərini elə çərçivəyə saldı ki, "SSRİ mənim Vətənimdir" devizilə II Dünya müharibəsində ərlərimizin qanını axıtdı, əhalinin və sahənin nisbətində qonşularımızdan və başqa xristian respublikalardan ən çox bizdən soldat apardı. Arvad məsələsində rus əxlaqı az qaldı qadınlarımıza aşılansın. Lakin Qasım əmilər yeniliyə qarşı çıxmaqda ciddi qəbahətlərə yol verdilər.

Ə.Haqverdiyev "Marallarım" silsilə hekayələri 1910-cu ildən yazmağa başladı. Ən böyük uğurun yolunu müəyyənləşdirdi: Qısa və lakonik təhkiyənin lirizmlə ifadəsi. Burada o, qələmdaşı Mirzə Cəlillə səsləşir.

Yazıçını narahat edən bir məsələ bədii ifadəsini tapır: dini xürafatın daşıyıcılarının camaatın birbaşa zehninə təsiri gücüdür və inandırıcı vasitələr tapırlar. "Şikayət"in qəhrəmanı Axund kimi. Ramazan ayı yetişcək axundlar, mollalar, moizəçilər atılırlar meydana. Ə.Haqverdiyevi oxucu düzgün anlamağa çalışmalıdır ki, ədib ateist deyildi, islamın sosial-əxlaqi fəlsəfəsini dərindən bilirdi. Ramazan ayının müqəddəsliyini də. Lakin mollaların "marallar" qiyafəsində apardıqları təbliğatın elmi əsasları yox idi, oxuduqlarının mahiyyətindən xəbərsizdilər, yalnız pul qazanmaq məqsədi güdürdülər. Oxuyuruq Axundun dediyini: "Ay balam, nə qədər hesab eləyirəm, altı yüz manat da düzəlmir. Bilməyirəm necə eləyim. Mənim ümidim bu ramazan ayınadır. Buna xatircəm olub, min manatadək borc eləmişəm və nisyə mal almışam. Belə getsə, axırda acımızdan qırılarıq. Üç arvad, səkkiz uşaq..." Kifayət edir Axundların xarakterlərini...

Axundu narahat edən bir etirafı da maraq doğurur: "Məscidə gedirsən - bomboş. Amma teatrdı, nə dağılmışdı, ağzınadək dolu!.. A kişi, gör iş nə məqama çatıbdır ki, qanqal Sadıqla kaftar Tağı da uşaqlarını şkolaya göndərirlər..." Xurafat təbliğat və təşviqatçıları mühitin oyandığını, avamlığın tədricən yumşaldığını, adamların özünüdərkini başa düşürlər. Axundun bircə yolu qalır ki, əllərini göyə qaldırıb: "Pərvərdigara, birliyin xatirəsi üçün fəryada yetiş. Yoxsa dini-islam əldən getməkdədir". Sözləri dilinin altında əzildə Axunda çatdırırlar ki, qiraət öyrənənlər gəlib. Və axund könülsüz durur ayağa, başını bulaya-bulaya keçir yan otağa.

Hekayəni monoloq kimi də qarşılamaq olar: Axund şəxsi mənafeyi üçün ağır hisslər keçirir, vəziyyəti qiymətləndirməyə çalışır. Axund gözləyirdi indi ab-hava başqalaşır, camaat oyanır, maarif şüurları silkələyir. Belə sosial halı ağlına gətirməmişdi. Lakin dövrün öz diktəsi var. Müəllif din xadimlərinin xalqın avamlığından məharətlə yararlanmasını hekayənin mövzusu seçmişdir. Diqqəti təfərrüatdan ayırıb, axund obrazına - savadsız və mənəviyyatca pozğun din adamına yönəldir.

Kiçik həcmli hekayədə axundun timsalında məişət dəllallarının - çoxarvadlı kişinin simasını "oxuyuruq". Yenilik ona sərf etmir, boş, dinin fəlsəfəsindən uzaq şəxsi fikirlərinin daha yeriməyəcəyini düşünür.

Ə.Haqverdiyev mətləbləri uzatmır və personajını "xilas" edir, ancaq oxucusu üçün bir sual qoyur: Axund(lar) qiraəti öyrənəndən sonra yenədəmi öz əvvəlki şakərini davam etdirəcəkdir?

Ə.Haqverdiyevdə lirik-epik intonasiya hekayənin məzmununda simvol (rəmz) yaradır: alt və üst rəmzlər. "Marallarım"ın özü bir simvoldur və kiçik düşüncəli, aldatmaq həvəsli, camaatı din pərdəsi altında tovlamaq - surətlərin əsas ideya yüküdür. "Yaşılbaş sona" hekayəsində biz "üst" simvolun daşıyıcıları ilə görüşürük. Böyük milli şairimiz Molla Pənah Vaqifin məşhur "Kür qırağının əcəb seyrangahı var..." misrası ilə başlanan şeirdəki "yaşılbaş sona" bədii obrazdan daha çox bədii detal funksiyasını yerinə yetirir və müəllifin ədəbi-estetik fikrini açır. Mən Ə.Haqverdiyevin Vaqifdən verdiyi "yaşılbaş sona"sında şairə zərif kinayəsini sezdim, bəlkə də səhvdəyəm. Əvvəla, yaşılbaş sona lirik surətdir və dişi ördəyə deyilir, erkəyin rəfiqəsidir. "Sona" həm də tək-quş rəmzidir. Hekayədə yazıçının maralları: yeniliyin, maarifin düşmənləri, dinlə adamları aldadanlar, bir sözlə, mənfi zümrələrdir və Şamaxıda, Aşağabadda əyləşib, öz işlərilə məşğuldular. Oxuyuruq: "Görürsən çıxır mənbərə, başlayır: "Başlarını ucadanlara lənət!, üzlərini qırxanlara lənət!, qəzet yazana lənət!.." Qırmızısaqqal, haçabirçək müridlər ağız-ağıza verib, hind toyuğu tək bağırırlar: "Lənət!" Yazıçı yaşılbaş sonanın gözü bir üzüqırxığa sataşanda Vaqifin orada olmamasına təəssüflənir - vurğuladığımız ironiyanın əyani sübutu deyilmi? Böyük şairin adını belə məqamda hallandırmaqda böyük yazıçı nə demək istəmişdir?

Hekayədə "yaşılbaş sona" hətta təsnif edilir: Tiflisdə, Qarabağda, Şamaxıda peyda olan yaşılbaş sonalar! Ə.Haqverdiyev təhkiyəsində lirizm, hekayələrində bir beyt şeiri epiqraf verməsindən bu ad yaranmışdır; bu isə yersiz görünür.

Professor Təhsin Mütəllimov məsələni belə səciyyələndirmişdir: "Göründüyü kimi, Vaqif şeirində lirik intonasiyada işlədilmiş bir ifadəni Haqverdiyev böyük bir satirik ümumiləşdirmə vasitəsinə çevirə bilmişdir".

**(ardı gələn şənbə sayımızda)**